# Orduya ruh, dövlətə dayaq: Heydər Əliyev irsi

**Tarix ya böyük hadisələrlə, ya da böyük şəxsiyyətlərlə yadda qalır, çünki tarixi böyük şəxsiyyətlər və böyük hadisələr yaradır. Böyük şəxsiyyətlər tarixin təkcə qurucuları deyil, həm də dayaqlarıdır.**

**Dünyada tarix yaratmaq hər şəxsə nəsib olmur, bunun üçün dərin zəka və ilahi vergisi olan istedad, şəxsiyyət və ləyaqət, tarixi həqiqət duyğusu və dönməz iradə, siyasi uzaqgörənlik və hadisələri qabaqlamaq bacarığı, insanlığa, millətə və dövlətə məhəbbət bəsləmək kimi ali xüsusiyyətlər tələb olunur.**



Dünyada bütün bu cəhətləri özündə birləşdirən dahiyanə şəxsiyyətlərdən biri fenomenal lider Heydər Əlirza oğlu Əliyev idi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, De Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev kimi dahi bir şəxsiyyət öz layiqli yerini tutdu.

O, XX əsrin son qərinəsində qədim bir dövlətə, ulu bir xalqa rəhbərlik etdi, xalqına güvənib yüksəldi və özü ilə bərabər xalqını da tarixin qızaran üfüqlərinə ucaltdı.

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Fərmansız, qılıncsız və qalxansız hökmran olan tarix daim yetişdirib ərsəyə gətirdiyi böyük şəxsiyyətləri ilə özünü cəmiyyətə təqdim edir.

Azərbaycan xalqı dünya tarixinə neçə-neçə böyük mütəfəkkirlərlə yanaşı, Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli dövlət xadimləri də bəxş etmişdir. Müasir Azərbaycan tarixi dedikdə, öncə gözümüzün önündə ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin siması canlanır.

Tarix boyu elə dühalar yetişib ki, onlara nəinki təmsil etdikləri xalqın taleyində, eləcə də dünya siyasətində olduqca böyük missiyanı həyata keçirmək səadəti nəsib olub. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə tarixi şəxsiyyət, dünya siyasətinin mahir bilicisi olmuşdur. Azərbaycanın müasir tarixinin böyük bir mərhələsi, eləcə də müstəqil dövlətimizin dinamik inkişafı və dünyaya inteqrasiya prosesi Ulu Öndərin adı və fəaliyyəti ilə bağlıdır.

Dünya tarixinin başqa tarixi şəxsiyyətləri kimi, Heydər Əliyev də öz xalqının, doğma Vətəninin müqəddəratının həll olunduğu çox çətin mübarizələrlə, kəskin ziddiyyətlərlə və ağır sınaq məqamları ilə dolu olan bir dövrdə, tarixi şəraitdə yetişmişdir.

Azərbaycan xalqının yarım əsrdən çox bir dövrü mürəkkəb və ziddiyyətli tarixi şəraitdə fəaliyyət göstərmiş Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu ilə, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O öz xalqının bağrından qopub gələn azərbaycanlı, öz yurdunun, doğma torpağının misilsiz təəssübkeşidir. Heydər Əliyev öz xalqının dahi oğlu olmaqla yanaşı, həm də dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir, ümumdünya tarixinin azərbaycanlı dahisidir.

XXI əsrin ən kamil azərbaycanlı obrazı Heydər Əliyev şəxsiyyətində təcəssüm olunur. Vətəninə, xalqına bağlı olan dövlət xadimi Heydər Əliyev dünyanın bütün azərbaycanlıları üçün müdriklik məktəbidir. Heydər Əliyev elə bir məktəbdir ki, ondan bütün nəsillər bəhrələnəcəkdir.

Əgər biz tarixə nəzər salsaq, onun hər hansı bir ömür kitabını diqqətlə vərəqləsək, onda görərik ki, Heydər Əliyev sözün əsl mənasında, ümumxalq məhəbbəti qazanan müdrik el ağsaqqalı, görkəmli dövlət xadimi, böyük diplomatik məharətə malik təcrübəli siyasətçi, Azərbaycan xalqının xilaskarı və müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinin banisi olmuşdur.

Hər bir dövlətin mövcudluğu onun müstəqilliyinin dönməzliyi, güclü iqtisadiyyatı ilə yanaşı, həm də yenilməz ordusu ilə səciyyələnir. Müstəqilliyini yenicə qazanmış, lakin müdafiə və təhlükəsizlik sistemi zəif olan Azərbaycan dövləti qarşısında duran mühüm vəzifələr sırasında Silahlı Qüvvələrin yaradılması və inkişafı xüsusi yer tuturdu. Lakin müstəqilliyimizin ilk illərində ölkədə yaranmış mürəkkəb ictimai-siyasi və hərbi vəziyyət ordu quruculuğuna da öz mənfi təsirini göstərmişdir.

Məlumdur ki, ordu faktoru hər bir dövlətin daxili və xarici siyasətinin güzgüsü sayılır. Dövlətin və cəmiyyətin orduya münasibəti həmin dövlətin öz nüfuzuna, bu gününə və sabahına olan münasibətidir. Ordu faktorunun rolu isə bilavasitə onun döyüş qabiliyyətindən asılıdır.

Hələ 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə yaradılan Cəmşid Naxçıvanski adına hərbi məktəb on minlərlə gəncin peşəkar zabit kimi formalaşmasına zəmin yaratmışdır. 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider dövlətçiliyin qorunmasının əsas dayağının məhz güclü ordu olduğunu bəyan etmiş və bu istiqamətdə mühüm islahatlara imza atmışdır.

Onun başçılığı altında ölkədə həyata keçirilən köklü islahatlar qısa müddət ərzində bütün sahələrdə olduğu kimi ordu quruculuğu sahəsində də mühüm irəliləyişlərə səbəb oldu. Ulu Öndər çox yaxşı bilirdi ki, güclü ordusu olmayan dövlət öz müstəqilliyini qoruya, vətəndaşların və cəmiyyətin təhlükəsizliyini təmin edə bilməz. Ona görə də, ordu quruculuğu məsələləri Heydər Əliyevin dövlətçilik siyasətinin əsas prioritetlərindən birini təşkil etmişdir. Eyni zamanda onu da vurğulamaq yerinə düşərdi ki, ordu quruculuğu Vətənə sevgidir, dövlətçiliyə sədaqətdir.

Ulu öndər Heydər Əliyevin qurduğu müasir Azərbaycan Ordusu zəfər salnaməsinin müjdəçisi idi.

Heydər Əliyevin gərgin və məqsədyönlü səyləri sayəsində 1994-cü ildə atəşkəsin elan olunması ölkədə ordu quruculuğu ilə bağlı genişmiqyaslı islahatlara start verilmişdi. Qısa müddət ərzində Heydər Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradılmışdı.

Dahi şəxsiyyət Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə ordunun mərkəzləşdirilmiş maddi-texniki təchizatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdı. Həmin dövrdə dünya hərbi təhsil standartlarına cavab verən Milli Hərbi Təhsil sisteminin formalaşmasına xüsusi diqqət yetirilmişdir. 1997-ci ildə Azərbaycan Ali Hərbi məktəbinin yaradılması ilə ölkəmiz ordu quruculuğunda, milli zabit kadrlarının hazırlanması tarixində keyfiyyətcə yeni bir mərhələyə qədəm qoydu.

Müdrik rəhbər Heydər Əliyevin 1999-cu il yanvarın 20-də Hərbi Akademiyanın yaradılması haqqında imzaladığı fərman, hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsində əsaslı dönüş yaratmışdı. Qeyd edilən dövrdə Heydər Əliyevin göstərişi ilə Azərbaycan Respublikası hərbçiləri bir sıra zəruri və mühüm ixtisaslar üzrə təhsil almaq üçün Türkiyə Respublikası, Rusiya Federasiyası, Ukrayna, Pakistan, Çin və digər ölkələrə göndərilmişdi. Həmin dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin beynəlxalq əlaqələri də xeyli güclənmiş, NATO, MDB çərçivəsində, habelə bir sıra dövlətlərlə ikitərəfli hərbi əməkdaşlığın əsasları qoyulmuşdur. Qeyd edilən bütün faktlar ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı, dövləti, ordusu, ən nəhayət, müstəqilliyi naminə göstərdiyi fəaliyyətin nəticəsidir.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən hərtərəfli və genişmiqyaslı tədbirlər ölkəmizin regionda ən güclü orduya malik olan dövlətə çevrilməsinə imkan vermişdir.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də müasir Azərbaycan Ordusunun yaradıcısı ümummilli lider Heydər Əliyevin siyasi kursu bu gün də Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün ordumuz döyüş və mənəvi-psixoloji hazırlıq sahələrində böyük uğurlar əldə edərək gündən-günə daha da güclənir və qüdrətlənir. Orduya dövlətin təhlükəsizliyinin, ərazi bütövlüyünün və müstəqilliyinin qarantı kimi baxan hər bir Azərbaycan vətəndaşı bu gün öz ordusu ilə, sözün əsl mənasında, fəxr edir. Bu gün Azərbaycan Ordusunun gücünün beynəlxalq ictimaiyyət tərəfindən etiraf edilməsi qürurvericidir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu öz gücünü 2020-ci ildə 44 günlük Vətən müharibəsində bir daha sübut etdi. II Qarabağ müharibəsi zamanı istifadə olunan döyüş taktikası dünya hərb tarixində yenilik hesab olunur. Tarixi zəfər nəticəsində torpaqlarımız işğaldan azad olundu və Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bu Qələbə yalnız cəsur əsgər və zabitlərimizin deyil, eyni zamanda illərlə aparılan sistemli və məqsədyönlü ordu quruculuğu siyasətinin nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hər zaman bəyan edir ki, ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsi onun fəaliyyətində prioritet istiqamətlərdəndir. Ötən müddət ərzində Azərbaycan Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsi sahələrində həyata keçirilən tədbirlər Ali Baş Komandanın Vətənin müdafiəçilərinin şərəfli xidmətinə necə yüksək qiymət verdiyini bir daha təsdiq edir.

Prezident, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə Nazirliyi rəhbərliyinin ordumuzun şəxsi heyətinə diqqət və qayğısı, ordumuza bəslədiyi yüksək inam və etimad bütün hərbçilərin qəlbini qürur və iftixar hissi ilə doldurur.

Azərbaycan Ordusu bu gün dövlətin qüdrətinin nümunəsi, ölkəmizin ərazi bütövlüyünü təmin etmək iqtidarında olan yüksək hazırlıqlı təsisatdır. Bütün bunlar Azərbaycan Ordusunun ən müasir tələblərə cavab verdiyini göstərir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin verdiyi qiymətə görə, regionda ən hazırlıqlı, ən müasir ordu Azərbaycan Ordusudur. Azərbaycan Ordusu dövlətin möhkəm sütunu, xalqın inam yeri və milli qürurun simvoludur.

*Gülnar BƏŞİROVA*
*AMEA-nın dissertantı, Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi*